**Tələbə qəbulu ilə bağlı ödənişli xidmətlərin tarifləri**

Tarif (qiymət) Şurasının qərarına əsasən orta ixtisas təhsili müəssisələrinə, ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura (tibb təhsili üzrə əsas təhsil və rezidentura) səviyyələrinə, Azərbaycan Milli Elmlər Akademiyasında magistratura səviyyəsinə tələbə qəbulu ilə bağlı imtahanlarda iştirak etmək üçün ödənişin məbləği aşağıdakı cədvələ uyğun müəyyən edilmişdir.

| № | Xidmətlərin adı | Ölçü vahidi | Tariflər (ƏDV-siz, manat) |
|---|---|---|---|
| 1. | Orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı test imtahanı | 1 iştirak üçün | 20 |
| 2. | Orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına tələbə qəbulu ilə bağlı qabiliyyət imtahanı | 1 iştirak üçün | 20 |
| 3. | Ali təhsil müəssisələrinin bakalavriat (tibb təhsili üzrə əsas təhsil) səviyyəsinə tələbə qəbulu ilə bağlı test imtahanı | 1 iştirak üçün | 40 |
| 4. | Ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinə tələbə qəbulu ilə bağlı imtahan (I mərhələ) | 1 iştirak üçün | 50 |
| 5. | Ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinə tələbə qəbulu ilə bağlı imtahan (II mərhələ) | 1 iştirak üçün | 60 |
| 6. | Baza ali tibb təhsili əsasında rezidenturaya qəbulla bağlı test imtahanı (I mərhələ) | 1 iştirak üçün | 60 |
| 7. | Baza ali tibb təhsili əsasında rezidenturaya qəbulla bağlı test imtahanı (II mərhələ) | 1 iştirak üçün | 100 |
| 8. | Ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən | 1 iştirak | 30 |

| | | | |
|---|---|---|---|
| | ixtisaslarına tələbə qəbulu ilə bağlı qabiliyyət imtahanı | üçün | |
| 9. | Rus bölməsi abituriyentləri üçün Azərbaycan dili üzrə test imtahanı | 1 iştirak üçün | 10 |

Xatırladaq ki, “Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli Sərəncamına əsasən əhalinin sosial müdafiəsini daha da gücləndirmək, maddi vəziyyətindən asılı olmayaraq şəxslərin təhsilini davam etdirməsini təmin etmək, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunu stimullaşdırmaq məqsədi ilə orta ixtisas təhsili müəssisələrinə və ali təhsil müəssisələrində ali təhsilin bakalavriat (tibb təhsili üzrə əsas təhsil) səviyyəsinə tələbə qəbulu ilə bağlı Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahanlarda iştirak etmək üçün Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi qiymətlərə uyğun olaraq, ümumi təhsil müəssisələrini bitirən aşağıdakı kateqoriyadan olan Azərbaycan Respublikası vətəndaşlarının imtahanlarda iştirakı üçün tələb edilən məbləğin ödənilməsi Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına həyata keçiriləcək:

1. ilk dəfə orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün müraciət etmiş abituriyentlər;

2. ilk dəfə ali təhsilin bakalavriat (tibb təhsili üzrə əsas təhsil) səviyyəsinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün müraciət etmiş abituriyentlər.

Cari ildə qəbul imtahanlarında iştirak etmək üçün ilk dəfə müraciət etmiş şəxslərin ilk imtahanda iştirakına görə ödənişi dövlət, ikinci imtahanda iştirakına görə ödənişi isə abituriyent ödəyəcəkdir.